BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 Təbiət elmləri seriyası 2008

# COĞRAFİYA

## AZƏRBAYCAN RESPUBLİKASININ TURİZM SAHƏSİNDƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIĞININ MÜASİR VƏZİYYƏTİ

**H.B.SOLTANOVA**
***Bakı Dövlət Universiteti***

*Məqalədə Azərbaycanın turizm sahəsində beynəlxalq əməkdaşlığının müasir vəziyyəti və bunun turizmin inkişafında rolu şərh edilir. Beynəlxalq əməkdaşlığın forma, məqsəd və vasitələri göstərilir.*

Azərbaycan Respublikasının xarici ölkələrlə beynəlxalq iqtisadi münasibətlərində turizm sahəsində əməkdaşlığının coğrafiyası genişlənir. Ölkələr arasında beynəlxalq münasibətlərin təcrübəsi göstərir ki, beynəlxalq turizm inkişafının bütün mərhələlərində dövlətlər və xalqlar arasında qarşılıqlı anlaşmanın yaxşılaşmasına, sülhün və dostluğun möhkəmlənməsinə, xarici iqtisadi, mədəni və ticarət münasibətlərin genişlənməsinə təsir edən amildir. Bu cəhətdən turizm həmişə beynəlxalq əməkdaşlığın faydalı mənbəyi olmuşdur.

Turizm sahəsində ölkələr arasında əməkdaşlıq olmadan bu sektorun inkişafına nail olmaq qeyri-mümkündür. Bu təbii haldır, cünki, hər hansı bir ölkədə xarici turistin istək və arzularına diqqətsiz yanaşılarsa, həmin ölkəyə səfərlər kütləvi halda ola bilməz. Kütləvi beynəlxalq turizm hərəkatının təkamülü illərində turizm sahəsində əməkdaşlığın səmərəli formaları mövcuddur. Bu əməkdaşlığın əsas məqsədi aşağıdakılardır:

- ölkələr arasında qarşılıqlı anlaşma və inamın möhkəmləndirilməsi məqsədilə turizm əlaqələrindən istifadə;
- iqtisadi, ticarət əlaqələrindən qarşılıqlı mənfəət məqsədilə turizmdən istifadə;
- elmi-texniki və mədəni təşkilatlar, ayrı-ayrı insanlar vasitəsilə münasibət və əlaqələrin genişləndirilməsi;
- qarşılıqlı əsaslarla ölkələr arasında turizm mübadiləsi məqsədilə daha əlverişli şəraitin yaradılması, turizm informasiyasının mübadiləsi yolu ilə texniki əməkdaşlığın yaradılması, turistlərə xidmətin texnologiyası və ümumi standartların hazırlanması, turizm formallıqlarının sadələşdirilməsi və s.

Turizm sahəsində beynəlxalq əlaqələrin inkişafında bir sıra beynəlxalq təşkilatlar mühüm rol oynayır. Bu baxımdan BMT-nin və onun xüsusi təşkilatları, o cümlədən Ümumdünya Turizm Təşkilatının (ÜTT) fəaliyyəti xüsusilə əhəmiyyətlidir. Bunların misalında turizm sahəsində çoxtərəfli beynəlxalq əməkdaşlığın təmin edilməsi üçün aparılan işlərin

məqsədi, vəzifəsi və formaları araşdırılır.

Azərbaycan Respublikasında beynəlxalq turizmin inkişafına, ölkənin beynəlxalq turizm bazarına inteqrasiyasına bu sahədə fəaliyyət göstərən təşkilatlarla əməkdaşlığın genişləndirilməsi yolu ilə nail olmaq mümkündür. Müstəqilliyin ilk illərindən 2000-ci ilədək respublikada bir sıra sahələrdə olduğu kimi turizm sektorunda da böhran vəziyyəti mövcud idi. Turizm sahəsində yaranmış problemlər nəzərə alınaraq, Azərbaycan Respublikası Prezidentinin 18 aprel 2001-ci il tarixli fərmanı ilə Gənclər, İdman və Turizm Nazirliyi (2006-cı ilin yanvar ayından Mədəniyyət və Turizm Nazirliyi) yaradılmışdır. Nazirlik yarandığı gündən başlayaraq fəaliyyətində respublikada turizmin inkişaf etdirilməsi üçün beynəlxalq təcrübənin öyrənilməsi və bunun milli turizm sektorunda tətbiq edilməsi məqsədilə beynəlxalq təşkilatlarla əməkdaşlığın qurulması və əlaqələrin genişləndirilməsi istiqamətlərində ardıcıl işlər aparmaqdadır. Bu məqsədlə ölkənin müxtəlif beynəlxalq təşkilatlarda üzvlüyünün və fəal iştirakının təmin olunması istiqamətində zəruri tədbirlər həyata keçirilir.

Azərbaycan Respublikası 2001-ci ilin sentyabr ayında Seulda keçirilən ÜTT-nın Baş Assambleyasında həmin təşkilatın tamhüquqlu üzvü seçilmişdir. ÜTT-na üzv seçilməsi Azərbaycanın bu təşkilatın müxtəlif ölkələrdə keçirilən tədbirlərində iştirakına və turizm sahəsində qabaqcıl dövlətlərin təcrübəsindən bəhrələnməyə imkan yaratdı. Belə ki, GİTN-nin nümayəndə heyəti 2001-ci ildə Koreya və Yaponiyada, 2003-cü ildə Çində keçirilən ÜTT-nın Baş Assambleyalarında, 2002-ci ildə Xorvatiyada, 2003-cü ildə Maltada, 2004-cü ildə San-Marinoda keçirilən ÜTT-nın Avropa Komissiyasının iclaslarında iştirak etmişdir.

Qeyd edək ki, ÜTT-nın yüksək səviyyəli nümayəndə heyəti də mütəmadi olaraq Azərbaycana səfər edir. 2002-ci ildə Ümumdünya Turizm günü çərçivəsində ÜTT-nın Baş katibi F.Franjialli, 2004-cü ildə Bakıda keçirilən III Azərbaycan turizm sərgisi çərçivəsində ÜTT-nın Avropa üzrə regional nümayəndəsi L.Kabrini Azərbaycanda səlahiyyətli səfərdə olmuşlar. Səfər zamanı ÜTT rəsmiləri Azərbaycan Respublikasının dövlət və hökumət başçıları, digər səlahiyyətli şəxslərlə görüşlər keçirmiş, Azərbaycanın geniş turizm potensialına malik olduğunun şahidi olmuşlar. ÜTT-nın təşəbbüsü ilə Azərbaycanda keçirilən seminarların da turizm təhsili və turizm fəaliyyətilə məşğul olan mütəxəssislər üçün mühüm əhəmiyyəti vardır. Bu cəhətdən 2007-ci ilin 16-17 aprel tarixində Bakıda «Turizm marketinqi və reklam texnologiyası» mövzusunda keçirilmiş regional seminar xüsusi qeyd olunmalıdır.

ÜTT ilə yanaşı digər təşkilatlar, o cümlədən İslam KonfransıTəşkilatı (İKT), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT), İqtisadi Əməkdaşlıq Təşkilatı, Beynəlxalq İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), GÜAM, ESCAP, MDB üzv dövlətlərinin Turizm Şurası, digər beynəlxalq və regional təşkilatlar çərçivəsində turizm sahəsi üzrə ikitərəfli və çoxtərəfli əlaqələr qurulur və inkişaf etdirilir. Bu baxımdan Azərbaycandan nümayəndə heyətinin 2002 və 2003-ci illərdə Malayziyada və Səudiyyə Ərəbistanı Məlikliyində keçirilmiş İKT-nın üzv ölkələrinin turizm nazirlərinin toplandığı konfranslarda, Türkiyə, Yunanıstan, Albaniya və Rusiyada keçirilmiş QDİƏT-nın turizm sahəsi üzrə İşçi Qrupunun iclaslarında, 2002-ci ildə Türkiyədə (Nevşehir şəhəri) OESD ilə Türkiyə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən «Türkiyədə insan

ehtiyatları ilə bağlı hədəflər və siyasət» mövzusunda keçirilən konfransda iştirakını qeyd etmək olar.

Beynəlxalq turizm əlaqələrində QDİƏT–nın rolu böyükdür. Bunu QDİƏT-nın dünyanın bir sıra ölkələrində, o cümlədən Azərbaycanda turizmin müxtəlif problemlərinə həsr edilmiş konfranslar təşkil etməsi sübut edir. Azərbaycanın təşkilatda sədrliyi dövründə 2003-cü ilin sentyabrında Mədəniyyət və Turizm Nazirliyi tərəfindən Bakı şəhərində təşkilatın üzv ölkələrinin turizm nazirlərinin müavinləri səviyyəsində «Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı regionunda turizm imkanları» mövzusunda beynəlxalq konqres keçirilmişdir. Bu tədbirdə Azərbaycanın turizm potensialının geniş təqdimatı olmuş, üzv ölkələrlə ikitərəfli və çoxtərəfli əlaqələrin genişləndirilməsi imkanları müzakirə edilmişdir.

2003-cü ilin 31 oktyabr – 1noyabr tarixində Yunanıstanda (Saloniki şəhəri) keçirilmiş QDİƏT-nın Turizm üzrə İşçi Qrupunun iclasında Azərbaycan tərəfini Mədəniyyət və Turizm Nazirliyinin nümayəndə heyəti təmsil etmişdir. İclasda təşkilat çərçivəsində turizm sektoru üçün kadrların hazırlanması, turizmin bir sıra növlərinin inkişaf etdirilməsi sahəsində əməkdaşlığın genişləndirilməsi müzakirə edilmişdir. Salonikidə keçirilən Beynəlxalq Turizm sərgisində QDİƏT-nın üzv ölkələri üçün ayrılmış vahid stenddə Azərbaycanın turizm potensialını əks etdirən çap məhsulları nümayiş etdirilmişdir. 2004-cü ilin 20-21 may tarixində Rumıniyada (Buxarest şəhəri) «Regionda imkanlar və perspektivlər» mövzusunda konfrans keçirilmişdir. Bu tədbirdə Azərbaycanı Rumıniyadakı səfirliyin əməkdaşları təmsil etmişlər. 2005-ci ilin mart ayında Yunanıstanın Rodos adasında QDİƏT-nın üzv ölkələrinini turizm nazirlərinin və turizm üzrə İşçi Qrupunun iclasları keçirilmişdir. Bu tədbirdə üzv ölkələrin nümayəndələri təmsil etdikləri ölkələrdə turizmin davamlı inkişafı sahəsində görülən işlər və bu istiqamətdə aparılan dövlət siyasəti haqda geniş məlumat vermiş, dəniz turizmi sahəsində əməkdaşlıq və Avropa İttifaqının Şərqə doğru genişlənməsilə əlaqədar ətraflı müzakirələr aparmışlar. Azərbaycanı təmsil edən nümayəndə respublikanın turizm potensialını əks etdirən CD nümayiş etdirmiş və tədbir iştirakçılarına çap məhsulları təqdim edilmişdir. QDİƏT çərçivəsində ikiillik fəaliyyət proqramının təqdimatı keçirilmiş və tədbirin yekun sənədi – «Rodos bəyannaməsi» qəbul edilmişdir. Bu proqramda üzv ölkələrdə keçiriləcək beynəlxalq turizm tədbirləri, sərgilər, tədris kursları, İşçi Qrupunun növbəti iclası və s. nəzərdə tutulmuşdur.

2005-ci ilin aprel ayında Yunanıstanın Turizm Nazirinin Azərbaycana rəsmi səfəri iki ölkə arasında turizm sahəsində əməkdaşlığın yeni mərhələsini açmışdır. Bakıda imzalanmış turizm sahəsində əməkdaşlıq haqqında dövlətlərarası saziş bu əlaqələrin inkişaf etməsinə hüquqi imkan verir. 2005-ci ilin sentyabr ayında Rusiya Federasiyasının Krasnodar vilayətinin Gelencik şəhərində QDİƏT çərçivəsində keçirilmiş «Qara dəniz regionunda turizm infrastrukturunun inkişafı» mövzusunda II Beynəlxalq Konfransda da Azərbaycan tərəfindən nümayəndə iştirak etmişdir. Konfransda əsasən təşkilat çərçivəsində mehmanxana və kurort biznesi sahəsində fəaliyyətin üç istiqaməti müzakirə olunmuşdur:

- Təşkilat çərçivəsində təsnifat sisteminin uyğunlaşdırılmasına istiqamətləndirilmiş turizm infrastrukturu obyektlərinin təsnifatı;
- Sahibkarların marağına uyğun təyinatlı təhsilin təkmilləşdirliməsinə

yönəldilmiş mehmanxana və kurort biznesi üçün kadr hazırlığı;

- Qara dəniz regionunda turizm infrastrukturunun inkişafına investorların cəlb edilməsi.

Bu konfransın qətnaməsinin icrası ilə əlaqədar Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyində müvafiq tədbirlər planı hazırlanmışdır.

2005-ci ilin oktyabr ayında Moldovanın Kişinyov şəhərində QDİƏT-nın turizm üzrə İşçi Qrupunun növbəti iclasında üzv dövlətlərinin nümayəndələri ölkədə turizmin davamlı inkişafı istiqamətində aparılan işlər, turizm sektoru üçün kadr hazırlığı, yeni yaradılan turizm mərkəzləri və turist mübadiləsinin genişləndirilməsi barədə ətraflı müzakirələr aparmışlar.

Beynəlxalq turizm əlaqələrinin inkişafında kadr potensialının hazırlanması böyük əhəmiyyət kəsb edir. Bu cəhətdən region ölkələrinin turizm üzrə dövlət və özəl sektorlarında çalışan mütəxəssislər, təlimatçılar üçün müntəzəm olaraq kurslar təşkil olunur. Türkiyə və Yunanıstanda keçirilən tədris seminarlarında respublikamızın turizm sektorunda çalışan mütəxəssislər, Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşları iştirak etmişlər. Digər tərəfdən QDİƏT üzv dövlətləri arasında turizm tədrisi və təliminin vasitə və imkanlarının inkişaf etdirilməsi, genişləndirilməsi məqsədilə Təşkilatın Katibliyilə ÜTT-nın rəsmi turizm tədqiqat mərkəzi olan İstanbulun Boğaziçi Universiteti arasında Anlaşma Memorandumu imzalanmışdır.

XXI əsrin ən mühüm layihələrindən olan «Böyük İpək Yolu» marşrutunun reallaşdırılması Mərkəzi Asiya, Qafqaz və Avropa ölkələri arasında turizm əlaqələrinin coğrafiyasının genişlənməsinə imkan yaradacaqdır. Region dövlətlərinin turizm bazarlarının inkişafında, turizm sərvətlərinin beynəlxalq miqyasda tanıdılmasında böyük rolu olan İpək Yolu üzərində əlverişli mövqedə yerləşən Azərbaycan layihə ilə bağlı keçirilən beynəlxalq tədbirlərdə iştirak edir. Özbəkistanın Buxara şəhərində ÜTT tərəfindən təşkil edilmiş «İpək Yolu üzərində turizm» mövzusunda IV Beynəlxalq Konfransda (oktyabr, 2002-ci il), Gürcüstanda keçirilən «Böyük İpək Yolu» ölkələrininin V Beynəlxalq turizm sərgi-yarmarkasında (may, 2003-cü il), Özbəkistanın Səmərqənd şəhərində ÜTT-nın Orta Asiya üzrə «Böyük İpək Yolu» ofisinin açılış mərasimində (oktyabr, 2004-cü il) Azərbaycan tərəfindən nümayəndə heyətinin iştirakı buna sübutdur. Bundan başqa bir çox beynəlxalq turizm sərgilərində Azərbaycanın turizm şirkətləri, xüsusilə «İmproteks» Böyük İpək Yoluna aid lövhədə digər ölkələrin şirkətlərilə birlikdə vahid alyansda iştirak edir.

Ölkə turizminin dünya turizm bazarına inteqrasiyası, xarici ölkələrlə turist mübadiləsinin genişləndirilməsi, turizm şirkətlərinin sayının artması, turizm infrastrukturunun yaradılması respublikamızda turizm sektorunun beynəlxalq standartlara uyğun səviyyədə inkişaf etdirilməsi istiqamətində aparılan ardıcıl işlərdəndir. Bunun nəticəsidir ki, Azərbaycan turizm məkanı kimi dünyada tanınmağa başlamışdır. İKT-nın Turizm Nazirlərinin V Konfransının Bakıda keçirilməsi təklifi ilə həmin Təşkilatın Katibliyinin Azərbaycan tərəfinə müraciət etməsi də bu reallıqdan irəli gəlmişdir. Bu konfransın Bakıda keçirilməsinin respublikanın turizm sektorunun inkişafında və üzv ölkələri arasında beynəlxalq turizm əlaqələrinin genişlənməsində əhəmiyyətini qiymətləndirərək tək-

lif qəbul edilmişdir. 2006-cı il sentyabrın 9-da İKT üzv dövlətlərinin Turizm Nazirlərinin V Konfransı Bakı şəhərində keçirilmiş, Bakı bəyannaməsi və turizmin inkişafı üzrə qətnamə qəbul edilmişdir.

Azərbaycanın turizm əlaqələrində regional təşkilatların rolu da böyükdür. Bu baxımdan GUAM regional təşkilatının fəaliyyəti xüsusi qeyd olunmalıdır. GUAM regional təşkilatının üzv ölkələrində turizm üzrə keçirilən tədbirlərdə Azərbaycan tərəfini Mədəniyyət və Turizm Nazirliyi təmsil edir. Gürcüstan, Ukrayna, Özbəkistan və Moldovada beynəlxalq turizm sərgilərində Azərbaycan layiqincə təmsil olunmuş və Bakıda keçirilən «AİTF beynəlxalq turizm sərgisində» üzv ölkələrindən nümayəndələr iştirak edirlər.

GUAM regional təşkilatı çərçivəsində turizmlə bağlı müxtəlif layihələr, o cümlədən, «Böyük İpək Yolu» layihəsi üzrə əməkdaşlıq inkişaf etdirilir. 2003-cü ilin may ayında Tbilisidə keçirilmiş «Böyük İpək Yolu» ölkələrinin V Beynəlxalq Turizm Sərgisi çərçivəsində Azərbaycan, Gürcüstan və Ukrayna milli turizm qurumlarının nümayəndələri, GUAM-ın turizm sahəsi üzrə dövlət və kommersiya təşkilatları arasında gələcək əməkdaşlıq məsələləri müzakirə edilmiş və bununla əlaqədar birgə bəyanat imzalanmışdır. 2004-cü ilin oktyabr ayında Moldovanın Kişinyov şəhərində keçirilən bu regional təşkilatın İşçi Qrupunun I İclasında iştirakçılar GUAM və Avropa İttifaqı arasında turizm sahəsində əməkdaşlığın perspektivlərini, təşkilatın turizm üzrə İşçi Qrupunun təsisedici sənədlərinin hazırlanmasını, təşkilatın turizm üzrə İşçi Qrupunun fəaliyyətinin mövzu istiqamətlərinin əlaqələndirilməsini, ümumi turist məhsullarının hazırlanmasını və digər məsələləri müzakirə etmişlər. Bundan əlavə, tərəflər üzv ölkələrin turizm sahəsində investisiya siyasətinin inkişaf etdirilməsi, informasiya mübadiləsi, turizmdə xidmət səviyyəsinin artırılması məsələlərini də müzakirə etmişlər.

İşçi Qrupun görüşü zamanı qəbul edilmiş protokolda üzv ölkələri nümayəndələri tərəfindən təşkilat çərçivəsində həm yerli, həm də xarici turistlərin istifadə edə biləcəyi birgə turist marşrutunun yaradılması təklif olunmuşdur. Bununla bağlı Moldovada təsdiq olunmuş «Şərab yolları» marşrutlarının fəaliyyət göstərdiyi üzv ölkələrin şərabçılıq sənayesinin inkişaf etdiyini və müəyyən potensialın olduğunu nəzərə alaraq «Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovanın şərab yolları» adlı birgə turist marşrutunun yaradılması müzakirə edilmişdir. Bununla əlaqədar ARTN tərəfindən respublika ərazisində qeyd olunan turist marşrutunun yaradılması və təşkilatın ümumi layihəsinə qoşulması üçün hal-hazırda 7 rayonda (Şəmkir, Şamaxı, Ağstafa, Tovuz, Xanlar, Gəncə və İsmayıllı) mövcud olan potensial öyrənilir və təhlil edilir. Bu layihə hazırlandıqdan sonra turistlərin regional marşruta cəlb edilməsi məqsədilə «GUAM-ın Şərab yolları» adlı birgə stendlə müxtəlif beynəlxalq turizm sərgilərində təbliğ olunması nəzərdə tutulur.

Beynəlxalq turizm sahəsində ölkələr arasında ikitərəfli əlaqələrə xüsusi diqqət yetirilir. Mədəniyyət və Turizm Nazirliyi tərəfindən bir sıra dövlətlərin, o cümlədən ABŞ, Küveyt, Türkiyə, Avstriya, Yunanıstan, Belorus, Rusiya, Gürcüstan, Ukrayna, Özbəkistan, Moldova, Bolqarıstan, Polşa, Çin, Pakistan, Ürdün, BƏƏ, AFR, Rumıniya və digər ölkələrin dövlət qurumları ilə əlaqələr yaradılmışdır. Azərbaycan Respublikası ilə Qazaxıstan hökumətləri arasında elm, mədəniyyət və turizm sahəsində uzunmüddətli əməkdaşlıq haqda Proqram sənəd hazırlanmış-

dır. Bu sənədlər ölkələr arasında beynəlxalq turizm sahəsində ikitərəfli əlaqələrin daha da genişlənməsi və inkişaf etdirilməsinə imkan verir.

Azərbaycanda turizmin inkişaf meyllərini nəzərə alaraq, ümumturizm məkanının yaradılması planlaşdırılır, respublikaya gələcək turist potensialı olan regionlar müəyyənləşdirilir və onların getmə turizm imkanları təhlil edilir. Bu məqsədlə ÜTT-nın apardığı təhlillər də nəzərə alınaraq İran Körfəzi ölkələrininin, Çinin, Koreyanın və digər regionların turizm bazarları öyrənilir və bu ölkələrin turistlərinin Azərbaycana cəlb olunması məqsədilə zəruri işlər görülür. Bu baxımdan Çinin turizm bazarı öyrənilmiş və bu bazarda getmə turizm imkanlarının ildən-ilə artması müəyyən edilmişdir. Çində getmə turizmi üzrə orta illik artım 1990-1997-ci illər 17 faiz olmuşdursa, 1998-2000-ci illərdə 30 faiz təşkil etmişdir. ÜTT-nın proqnozuna görə 2020-ci ildə Çin vətəndaşlarından 100 mln. nəfərinin xarici ölkələrə turist səfərlərinə getməsi gözlənilir və bu göstəriciyə görə Çinin dünyada 4-cü yerdə olacağı qeyd edilir. Çin turistlərinin mütəşəkkil formada respublikamıza cəlb olunması məqsədilə Azərbaycan Respublikasının Çinin «Tövsiyyə Edilən Turizm Ölkələri Statusu (TETÖS)» sisteminə qoşulması nəzərdə tutulur. Bu məqsədlə Çin tərəfinə diplomatik yolla müvafiq qaydada müraciət göndərilmişdir.

Rusiya Federasiyasının böyük turizm potensialı imkanları da araşdırılmışdır və 2005-ci ildə Rusiyada Azərbaycan ili çərçivəsində Federasiyanın bir neçə regionunda respublikamızın turizm potensialının təqdimatı keçirilmişdir. Azərbaycanda nəqliyyat xərclərinin yüksək, göstərilən xidmətin isə aşağı olması ilə əlaqədar Rusiya Federasiyası vətəndaşları istirahət məqsədilə Türkiyə, Misir və digər ölkələri seçirlər. Bu baxımdan Azərbaycanda infrastrukturun yaxşılaşdırılması və servis xidmətinin yüksəldilməsi MDB turizm məkanına inteqrasiyaya geniş şərait yarada bilər.

Respublikamızın turizm imkanlarını beynəlxalq aləmdə təbliğ etmək məqsədilə Mədəniyyət və Turizm Nazirliyi bir sıra təbdirlər həyata keçirir. Nazirliyin sifarişilə son illərdə respublikamızın turizm imkanlarını əks etdirən mühüm çap-reklam məhsulları hazırlanmışdır. «Turistlər üçün məlumat» kitabçası, «Azərbaycan olduğu kimi» atlası, «Azərbaycana xoş gəlmisiniz» kataloqu, «Azərbaycan üzrə bələdçi» kitabı, Azərbaycanın turist xəritələri, CD disklər və s. Azərbaycan, ingilis və rus dillərində nəşr edilmişdir. İldə 6 dəfə «Azerbaijan Review» jurnalı rus və ingilis dillərində çap edilir. Qeyd olunan reklam-çap məhsulları beynəlxalq turizm sərgilərində sərgi iştirakçılarına və ziyarətçilərə paylanılır, Azərbaycanın xarici ölkələrdəki səfirlik və nümayəndəliklərinə çatdırılır. Respublikamızın turizm potensialını əks etdirən reklamlar xarici ölkələrdə nəşr edilən müvafiq jurnallarda yerləşdirilir, turizm infrastrukturunu əks etdirən video materiallar Beynəlxalq turizm sərgilərində nümayiş etdirilir. Bunlarla yanaşı dünyanın bir çox aparıcı televiziya kanallarından (CNN, Əl-Cəzirə, STV), kütləvi informasiya vasitələrindən (Travel İQ, CNN Travel, Washington Post, Travel-Unravelled) Azərbaycanın turizm potensialının təbliğatı üçün materialların hazırlanması ilə bağlı Mədəniyyət və Turizm Nazirliyinə müraciət və təkliflər daxil olmuşdur. Lakin maliyyə vəsaitinin məhdudluğu ucbatından qeyd olunan kütləvi informasiya vasitələrində Azərbaycanın turizm potensialı haqda məlumatların yerləşdirilməsində çətinliklər yaranır.

Respublikamızda hər il Bakı şəhərində «AİTF» Azərbaycan Bey-

nəlxalq Turizm Sərgisi keçirilir. Bu sərgilərdə iştirak edən xarici ölkələrin turizm şirkətlərinin sayı ildən-ilə artır. Azərbaycan Respublikası da dünyanın bir sıra ölkələrində turizm sərgilərində iştirak edir. 2001-2002-ci illərdə GİTN mütamadi olaraq London, Moskva, Berlin şəhərlərində sərgilərdə iştirak etmişdir. 2003-cü ildən başlayaraq respublikanın Beynəlxalq turizm sərgilərində iştirakının coğrafiyası daha da genişlənmişdir. Belə ki, İstanbul, Dubay, Kiyev, Tbilisi, Daşkənd, Mahaçkala, Məşhəd, Pekin, Əl-Küveyt şəhərlərində keçirilən Beynəlxalq turizm sərgilərində iştirak etmişdir. Bu sərgilərdə Azərbaycanın turizm potensialını Mədəniyyət və Turizm Nazirliyilə birlikdə respublikamızda fəaliyyət göstərən bir sıra turizm şirkətləri də təmsil edir. Sərgilərdə iştirak edən turizm şirkətləri xarici ölkələrin turizm şirkətləri ilə danışıqlar aparır və əməkdaşlıq haqqında müqavilələr imzalayırlar. Bu tədbirlərin nəticəsində Azərbaycana gələn turistlərin sayının ildən-ilə artması müşahidə olunur.

Turizm faliyyətilə məşğul olan müəssisələrdən əldə olunan məlumata görə, 2001-ci ildə respublikamıza 820 nəfər turist gəlmişdirsə, 2006-cı ildə bu göstərici 14472 nəfər olmuşdur. Lakin bu göstərici Azərbaycana gələn turistlərin sayı haqda tam təsəvvür yaratmır. Dövlət sərhəd qoşunları xidmətindən alınan məlumata görə 2006-cı ildə Azərbaycana 1,2 mln. nəfər xarici ölkə vətəndaşının daxil olması göstərilir. Bunlar arasında respublikamızda təhsil alan xarici vətəndaşlar, işləyən əcnəbi vətəndaşlar, sərhədyanı ticarət ilə məşğul olan xarici vətəndaşlar da vardır. Digər tərəfdən turist kimi qeydiyyatdan keçməyən və bir neçə günlüyə Azərbaycana səfər edənləri də nəzərə alsaq, respublikaya gələn turistlərin sayının real olmadığına şübhə qalmır. Gəlmə turizmində inkişaf meylləri turizm siyasətinin düzgün istiqamətdə olmasını təsdiq etsə də, bu sahədə dövlət tərəfindən xüsusi sektorun fəaliyyətinin stimullaşdırılması üçün tədbirlərin genişləndirilməsinə ehtiyac vardır.

Respublikamızın turizm potensialının dünya miqyasında tanınması məqsədilə xarici ölkələrdəki Azərbaycan diasporunun fəaliyyətinə də böyük ehtiyac vardır. Bu sahədə xarici ölkələrdə yaşayan azərbaycanlılarla iş üzrə Dövlət Komitəsilə sıx əməkdaşlıq edilir. Belə ki, 2004-cü il .aprel ayında Berlin şəhərində təşkil olunmuş Avropa-Azərbaycan Təşkilatları Assambleyasının toplantısında Mədəniyyət və Turizm Nazirliyinin də nümayəndəsi iştirak etmiş və Azərbaycanın turizm potensialının təqdimatı keçirilmişdir.

Həyata keçirilən və keçirilməkdə olan bu və ya digər tədbirlər Azərbaycan Respublikasının turizm sahəsində beynəlxalq əməkdaşlığının daha da genişlənməsinə, ölkəmizin dünya turizm bazarına inteqrasiyasına və dünya turizm məkanında layiqli yer tutmasına, turistlərə göstərilən xidmətin beynəlxalq standartlara uyğunlaşdırılmasına, investisiya axınının cəlb olunmasına, rəqabət qabiliyyətli turizm sənayesinin formalaşmasına səbəb olacaqdır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin 2006-cı il üzrə hesabatı. Bakı: 2007.
2. Azərbaycanda turizm. Azərbaycan Respublikası Dövlət Statistikası Komitəsi. Bakı: «Səda», 2007.
3. Уваров В.Д., Борисов К.Г. Международные туристические организации. М.: Меж-

дународные отношения, 1990.
4. Экономика и организация туризма: Международный туризм. Под ред. И.А.Рябовой и др. М.: КНОРУС, 2005.

## СОВРЕМЕННОЕ СОСТОЯНИЕ МЕЖДУНАРОДНОГО СОТРУДНИЧЕСТВА В ОБЛАСТИ ТУРИЗМА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**Г.Б.СОЛТАНОВА**

### РЕЗЮМЕ

Рассматривается современное состояние международного сотрудничества в области туризма Азербайджана и его значение в развитии туризма. Показаны основные формы, цели и средства международного сотрудничества.

## MODERN CONDITION OF THE INTERNATIONAL COOPERATION IN THE FIELD OF TOURISM OF THE AZERBAIJAN REPUBLIC

**H.B.SOLTANOVA**

### SUMMARY

The modern condition of the international cooperation in the field of tourism of Azerbaijan and its{his} value in development of tourism Is considered{examined}. The basic forms, the purposes and means of the international cooperation are shown.